*Keçmişimizdən gələn səslər*

# Qədimlərə kök salan Qəbələ

Tarixi kim yaşadır ? Əlbəttə xalq. Demək hər bir xalqın birinci vəzifəsi tarixini sevmək, yaşatmaq, gələcəyini düşünmək,öyrənmək və mühafizə etməkdir. Tariximizi sevməli, sevdirdirməli, qorumalı və gələcək nəsillərə düzgün şəkildə təbliğ etməli və çatdırmalıyıq. Bu istiqamətdə hər bir vətəndaş üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməli və bu mövzuya həssaslıqla yanaşmalıdır. Çünki bizim gələcək nəsillərə ötürdüyümüz informasiya, ərməğan etdiyimiz tarixi yadigarlar keçmişimizi yaşatmaqla bərabər, gələcək illərimiz üçün geniş yollar açır.





Azərbaycanın hər bir güşəsi qədimdir. Hər daşında, hər qaya parçasında, torpağının hər qarışında böyük bir tarix yatır. Bu tarixi sevə-sevə öyrənmək, təbliğ və tədqiq etmək bir vətəndaşlıq borcudur. Torpağın altına, üstünə yaxşı bələd olarıqsa ulu keçmişimizin səsini yaxşı duya bilərik. Keçmişimizdən gələn səslər qədim ulu keçmişə sahib olduğumuzu təsdiq edən bariz nümunədir.

Necə ki, bu gün qədim Qəbələnin tarixi ulu keçmişə malik olduğumuzun dünyaya sübutudur və hazırda tarixin dərin qatları bir daha araşdırılmaqda davam edir. Qeyd edək ki, qədim Qəbələnin tarixini öyrənmək üçün arxeoloji qazıntılar 1926-cı ildən başlayaraq müəyyən fasilələrlə, 1959-cu ildən isə müntəzəm və sistemli şəkildə davam etmişdir. Tarixi araşdırmalar nəticəsində əldə edilən nümunələrin qədimliyi, təkrarsızlığı, unikal və zənginliyi deməyə əsas verir ki, qədim Qəbələ Şərq mədəniyyətinin ən qədim irsi hesab edilə bilər. Qədim Qəbələ Azərbaycanın Qafqaz Albaniyası dövrünün ən çox və hərtərəfli inkişafını təsdiq edən unikal şəhərlərindən biri olmuşdur. Coğrafi cəhətdən, o cümlədən əlverişli strateji mövqeyə malik olması, Şimal-qərbi Azərbaycanın Şimal və Cənub keçidlərinin üzərində yerləşməsi iqtisadi, mədəni inkişafa böyük təsir etmişdir. Müəyyən edilmişdir ki, Qəbələnin adı "Kabalaka" formasında ilk dəfə yazılı mənbələrdə b.e. I əsrində məşhur Roma alimi Böyük Plineyin ensiklopedik "Təbii tarix" əsərində çəkilmişdir. Tarixi araşdırmalar sübut etmişdir ki, Qəbələ şəhər kimi e.ə IV əsrdə salınmış, b.e V əsrinin ortalarına qədər Qafqaz Albaniyasının paytaxtı olmuş, XVIII əsrin ortalarınadək Azərbaycan və Şərqin tarixində möhtəşəm şəhər kimi fəaliyyət göstərmişdir.

Tarixin dərin qatlarını bir daha araşdırmaq məqsədi ilə Qəbələ arxeoloji ekspedisiyası əsas tədqiqat obyekti kimi qədim şəhərin xarabalıqlarında, o cümlədən rayonun müxtəlif ərazilərində də kəşfiyyat xarakterli işlər aparmışdır. Son illər planlı şəkildə aparılmış qazıntı işləri nəticəsində rayonun qədim Qəbələ, eləcə də Böyük Əmili və Savalan kəndləri ərazisində Paleolitin Aşel dövrünə aid daş alətlər tapılmışdır. Arxeoloji qazıntılar zamanı saysız-hesabsız müxtəlif təyinatlı tapıntılar; keramik, numizmatik, o cümlədən yeraltı məbədlərin, ovalşəkilli geniş binaların aşkar edilməsi qədim Qəbələnin zəngin mədəniyyətə malik olduğunu, iqtisadi cəhətdən inkişafını təsdiq edir. Son tədqiqatlar zamanı aşkar edilən yeraltı məbədlərin, ovalşəkilli binaların və müxtəlif formalı inzibati binaların forma və arxitektura baxımından mükəmməlliyi Qəbələnin mərhələli, yüksək şəkildə inkişafının göstəricisidir. Qeyd edək ki, aşkar edilən bu binaların əksəriyyətinin bünövrəsi 2 m enində bir qat çaydaşından, divarları çiy kərpiclə hörülmüşdür. Arxeoloji qazıntılar zamanı aşkarlanmış dairəvi formada Alban məbədləri və inzibati binaların qalıqları arxitektura baxımından Yunan - Roma üslubuna daha yaxındır, hətta bəzi gil qabların formaları eynilik təşkil edir. Qeyd edək ki, Makedoniyalı İsgəndərin, Frakiya hökmdarı Lisimaxın, Selevikilər, Yunan - Baktriya dövlətinin hökmdarlarının adına kəsilmiş pulların aşkar edilməsi bir daha sübut edir ki, Qəbələ Böyük İpək yolu vasitəsilə xarici ticarət əlaqələrini möhkəmləndirmiş və mədəni-iqtisadi cəhətdən inkişaf etmiş dövlət olmuşdur. Tədqiqatlar zamanı bəzi binaların daxilində müxtəlif ölçüdə, yan-yana bir neçə təndir aşkarlanmışdır. Təndirlərin sayının çoxluq təşkil etməsi deməyə əsas verir ki, vaxtilə bu binalar çörək bişirən müəssisə olaraq fəaliyyət göstərmişdir. Aşkar edilən digər binaların ərazisində isə çoxsaylı müxtəlif təsərrüfat küplərinə rast gəlinmişdir. Tədqiqatçılar belə qənaətə gəlmişlər ki,bu tip binalar tədarük anbarı kimi istifadə edilmişdir. Hətta bu küplərin bəzilərinin içərisindən buğda qalıqları aşkar edilmişdir.

(Ardı gələn sayımızda).

# Məzun günü



Qəbələ rayonunun ümumtəhsil məktəblərində "Məzun günü"nə həsr edilmiş tədbirlər keçirilmişdir. Bu il XI-ci sinfi bitirən 1173 nəfər məzun üçün məktəb həyatının son, müstəqil həyatın ilk zəngi çalınıb. Bayram tədbirlərində rayon təhsil sektorunun nümayəndələri, müəllimlər, valideynlər, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə əlilləri və veteranları iştirak etmişlər. Tədbirlərdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı əvəzsiz xidmətlərindən, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsil sahəsində həyata keçirilən uğurlu siyasətdən söz açmış, məzunları və valideynləri "Məzun günü" münasibəti ilə təbrik edərək, onlara uğurlar arzulamışlar.

# Ürəklərə yol tapan yaradıcılıq





Son dövrlər yaşadığımız zaman və dövr və dövrün inkişafı ilə əlaqədar insanların qarşılaşdığı müxtəlif problemlər, tarixi əhəmiyyət kəsb edən hadisələr qələm sahiblərinin nəzərdiqqətindən kənarda qalmır. İstedadı olan hər kəs öz qələmi ilə belə hadisələri öz dünyagörüşü və bacardığı tərzdə demək olar ki, "tarixləşdirir". Axı kitablar sabahkı nəslə ötürülən sənədlərdir. Redaksiyamıza təqdim olunan kitabdan biri təqaüddə olan, fizika fənnini tədris etmiş Qərib Hüseynova məxsusdur. O hələ gənc yaşlarından hər bir misrasında həyat həqiqətləri əks olunan şer və poemalar ilə oxucu rəğbətini qazanmışdır. Qəzet səhifələrində, sosial mediada oxucuların rəğbətini qazanan şeirləri cəmləşdirilib kitab kimi çap olunaraq oxuculara təqdim olunmuşdur. Yaradıcılığında vətənpərvərlik və mənəvi zənginlik həmişə ön plana çəkilmişdir. O, əfsanəvi general Polad Həşimova həsr olunmuş "O, bir əfsanə idi" və Vətən Müharibəsinin xanım şəhidi Ərəstə Baxışovaya həsr olunmuş "Ərəstə dastanı" poema kitablarının müəllifir. "Payız pıçıltıları" onun üçüncü kitabıdır.

Bu günlərdə bu kitabın Qəbələ rayon mədəniyyət evində təqdimatı keçirilmişdir. Kitabda yer alan nəzm və nəzr janrında yazılan materiallar real həyat nümunələridir. Şair vətənpərvərlik və insanlığın ən incə xüsusiyyətlərini burada əks etdirmişdir. Təqdimat mərasimində ədəbiyyatsevərlər, şairin qələm yoldaşları iştirak etmiş və onun yaradıcılığı haqqında öz fikir və arzularını söyləmişlər; həmçinin kitabdakı şeirlərdən nümunələr səsləndirmişlər.

**BİBİXANIM.**




# QƏBƏLƏ

qəzetinə

***2024-cü ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.***

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**




Taxıl biçini.

# İTMİŞDİR

Qəbələ rayon Mirzəbəyli kənd sakini **Quliyev Bəhman Murad oğluna** məxsus FORD markalı, 10 VR 916 nömrəli yük maşınının **qeydiyyat nişanı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ şəhər sakini **Rzayev Veysəl Mehman oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bileti itdiyi üçün** etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİ:* Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1270*